DOI:10.30546/gdu.2023.273-277

Mərhum prof. Samət Əlizadə elm aləmində özünün bəlli elədiyi "Oguznamə" abidəsinə "Müdrikliyin sönməz işığı" adlı ön sözündə haqlı olaraq deyirdi: "Atalar sözləri bugünkü oxucuya nə verir, hər bir paremik vahidin ən qiymətli cəhəti nədədir: yığcamlığındamı, nəsihətamiz ruhunda, obrazlığında, ahəngindəmi və ya dərin ictimsi-fəlsəfi məzmunundamı? Əlbəttə, bu xüsusiyyətlərin ideal vəhdətində! Bu, əsl möcüzədir ki, "atasız-anasız doğulan hər bir paremik vahid uzun məsafələr, dolanbac yollar keçib, əcdadımızın canlı səsini, nəfəsini, gah nikbin, gah bədbin əhvali-ruhiyyəsini, təcrübədən çıxmış öyüd-nəsihətini, müzəffər dərrəkasını tarixin qaranlıq girdabından çıxarıb bizə çatddırır. Doğrudan da, atalar sözü bütün sözlərdən uludur, hər bir atalar sözündə bir kitablıq fikir, məlumat xəzinəsi vardır".

Çox sayda atalar sözlərinə Azərbaycan türk ədəbiyyatının şah əsəri olan "Kitabi- Dədə Qorqud"da rast gəlinir. Burada Qorqud Ataya aid yetmişdən artıq atalar sözləri toplanıb, iki minəcən atalar sözləri və zərbi-məsəli özündə etiva edən "Oğuznamə", həmçinin mindən artıq atalar sözləri və xalq məsəlini özündə birləşdirən XVIII əsr abidəsi "Əmsali-türkanə"ni də qeyd etmək olar. Azərbaycan atalar sözlərinin ardıcıl şəkildə toplanmasına, tərtib və nəşr olunmasına əsasən XIX əsrin sonlarından etibarən başlanır.

İlk dəfə Azərbaycan atalar sözləri ayrıca kitab halında 1899-cu ildə Məmməd Vəli Qəmərli tərəfindən İrəvanda nəşr edilmişdir. Bu kitabda 750-yə yaxın atalar sözləri toplanmışdır. Məmməd Vəli Qəmərli müəllifi olduğu atalar sözləri haqqında yüksək və dəyərli fikir söyləmişdir: "Dünyada hər kəs üçün sözdən böyük yadigar və ya vərəsə yoxdur, mal, mülk, tələf olur gedər, amma söz qalar. İnsan üçün sözdən xeyirli, heç bir dövlət yoxdur. Necə ki, demişlər: "Cəvahirin qiyməti var, amma sözün qiyməti yoxdur". (Azərbaycan qəzeti. www.azerbaijan-news.az. 23 sentyabr 2011-ci il).

Görkəmli maarifçi Soltan Məcid Qənizadənin, görkəmli tənqidçi Firidun bəy Köcərlinin, yazıçı, etnoqraf Rəşid bəy Əfəndiyevin XX əsrin əvvəllərində çap edilmiş kitablarında da atalar sözlərinə rast gəlinir. Eləcə də "Məktəb" və "Dəbistan" jurnallarında arabir atalar sözləri dərc edilərmiş. Bu hikmət çeşməsini ilk dəfə araşdıran, onu bir yerə toplayan, tərtib edən, nəşrə hazırlayan unudulmaz folklorşunas, əməkdar mədəniyyət işçisi mühasib Əbülqasım Hüseynzadə olub. 1910-cu ildə Üzeyir Hacıbəyli ilə görüşən Əbülqasım Hüseynzadə Üzeyir bəyin məsləhəti ilə "sən xalqımızın ləl-cavahiratını toplayırsan və buna davam et deməsi" Əbülqasım Hüseynzadəni daha da həvəsləndirir. 1926-cı ildə iki minə yaxın atalar sözlərindən ibarət ilk kitab "Bakı işçisi" nəşriyyatının mətbəəsində çapdan çıxır. Bunun ardınca ədəbiyyatşünas, tənqidçi, folklorşünas Hənəfi Zeynallının tərtib etdiyi "Atalar sözü" kitabı çap edildi. Kitabın müqəddiməsində müəllif yazırdı: "Mənə kömək edənlərdən biri də Əbülqasım Hüseynzadədir. (1938-ci ildə) Məmməd Arif Dadaşzadənin redaktorluğu, Həmid Araslının müqəddiməsi ilə müəllifin ikinçi kitabı capdan çıxdı. 1949-cu ildə Əbülqasım Hüseynzadənin çap etdirdiyi növbəti "Atalar sözü" əlifba sırası ilə düzülmüş vəziyyətdə çapdan çıxdı. 1956-cı ildə "Atalar sözü"kitabının dördünçü nəşri işıq üzü gördü. Sonrakı illərdə Azərbaycan atalar sözləri rus, Ukrayna dillərində çap edilirdi. Hüseynzadənin sonuncu "Atalar sözü"kitabı 40-min nüsxə ilə 1985-ci ildə çap edildi.

Atalar sözlərinə orta əsr ədiblərinin əsərlərində də rast gəlmək olur. Görkəmli şairlərimizdən olan Qətran Təbrizi, Xaqani, Nizami Gəncəvi, Şah İsmayıl Xətai, Məhəmməd Füzuli və başqa şairlərimiz öz əsərlərində atalar sözlərindən də istifadə etmişlər. Məs: Qətran Təbrizi: "Ömrü boyu kimsəni bir dəfə ilan sancsa, daim ala çatı onun gözlərinə ilan görünər", "Günəşi palçıqla suvamaq olmaz", "Sən yaxşılıq edib dənizə at, balıq bilməsə, xalıq bilər". Xaqani: "Dağ dağa qovuşmaz, qovuşar adamlar", "Bu gün bağışladığını sabah geri alma", "Dünyada nə qədər əbləh adam var, özünə çox yüksək məqam arzular". Nizami: "Axtaran tapar", "Doşab almışam, bal çıxıb", "Hər kəsin tüstüsü öz bacasından çıxar", "Ev oğrusunu

DOI:10.30546/gdu.2023.273-277

tutmaq olmaz”, “ İsinmədim istisinə, kor oldum tüstüsünə”, “Pişik balasını istədiyindən yeyər”, “Vaxtsız banlayan xoruzun başını kəsərlər” və s.

Atalar sözlərinə bir çox folklor janrlarının daxilində də işlənir. Bu mənada bayatılar xüsusilə seçilir. Folklorşunas Vaqif Vəliyevin “ən ali, ən ülvi, ən təmiz hissləri ifadə edən şeir şəkli” adlandırdığı bayatılarda biz, doğrudan da atalar sözlərinin yüz ölçülərək, bir biçilərək verilməsini görürük:

Görünür hürü dağı,
Duman, gəl bürü dağı.
Ölü dağı çəkilər,
Çəkilməz diri dağı (5, s. 312)

Yuxarıda nümunədə biz “Ölü dağı çəkilər, çəkilməz diri dağı” atalar sözünü görə bilirik.

Dərdini de bilənə,
İş başına gələnə.
Açma ürək dəftərin,
Hər üzünə gülənə.(6, s. 251)

Bu bayatıda hər üzünə gülənə sirr vermək olmaz, fikri ifadə olunur. Bəzi bayatılar da var ki, həmin bayatılarda atalar sözü birbaşa iştirak etmir. Lakin bayatının gizlədilmiş alt mənasında biz atalar sözünün varlığını duyuruq, məna qatı bizə bayatı daxilindəki atalar sözünü nişan verir. Nümunələrə baxaq:

Bülbül qurban güllərə,
Qurban şirin dillərə.
Hamı əl-ələ versə,
Yağı neylər ellərə. (5, s.337)

Bu bayatıda tək əldən səs çıxmamağını, güçün birlikdə olduğunu başa düşməyənin məğlub olduğu fkri aşılanır.

El oba ilə bağlı olan atalar sözü aşağdakıdır:

Əzizim ötmək olmaz,
Köhlənin ötmək olmaz.
Elin atdığı daşı,
Yerdən tərpətmək olmaz.

Bu bayatıda biz “Elin atdığı daş uzaq gedər”, “El gücü, sel gücü”, “El atan daşa güc çatmaz” kimi bir çox atalar sözünün mənasını müşahidə edirik.

Mən aşiq yanar gəzər,
Dərdini sanar gəzər.
Yoxsulluq yaman dərddir,
Dost səndən kənar gəzər.

“Dost da yoxsuldan uzaq gəzər”, - mənasında olan bu atalar sözü mənalı və müdrik, dərin həyat təcrübələrinin ümumuləşmiş nəticəsi kimi qarşımıza çıxır, biz çox rahatlıqla bu misranın mənasını və mahiyyətini gündəlik baş vermiş hadisələrə şərhimiz zamanı istifadə edə bilirik.

Atalar sözlərindən müxtəlif el şairləri və aşıqlar da istifadə etmişlər:

Məsələn, Aşıq Ələsgər demişdir:

Qüdrətdən ucalan, zülm ilə enməz,
Haqdan yanan çıraq bad ilə sönməz.

Yəni Allah ucaldanı heç bir bəndə yıxa bilməz, bu bir həqiqətdir.

***Abbas Tufarqanlı da isə***:

El bir olsa, dağ oynadar yerindən,

DOI:10.30546/gdu.2023.273-277

Söz bir olsa, zərbi kərən sındırar.

Bu atalar sözündən göründüyü kimi güç birlikdədir, yəni tək əldən səs çıxmaz.

Atalar sözü yazılı ədəbiyyatda da xeyli istifadə olunmuşdur.

Ümumiyyətlə, hər hansı bir yazıçının atalar sözlərindən istifadəsi labüd və zəruridir, eyni zamanda bu, çox təbii şəkildə əsərə daxil olur. Məsələn, bəzi yazıçılar atalar sözlərindən istifadə etməklə öz fikir və mülahizələrini daha inamla deməyə imkan tapır.

Atalar sözləri müxtəlif yazılı mənbələrdə, eyni zamanda görkəmli ədiblərin yaradıcılığında da öz əksini tapmışdır. Yazıçı və şairlər əsərdə olan mənanı daha da təsirli, qüvvətli təqdim etmək üçün zaman-zaman atalar sözünə müraciət etmişlər. Atalar sözü, görkəmli ədiblərimizdən olan H.Cavidin, eyni zamanda Ə.Hamidin yaradıcılığında da öz əksini tapmışdır. H.Cavid yaradıcılığında da atalar sözləri bədii mətnin mahiyyətində və ruhunda əks olunmaqdadır: “Lənət kor şeytana”, “Məhəbbətin gözü kordur”, “Söz qılıncdan kəsərlidir”, “Qılınc yarası sağalar, söz yarası sağalmaz”, “Qozbeli qəbir düzəldər” kimi folklor deyimləri H.Cavid yaradıcılığında işlədilən atalar sözləridir. Bütün bunlara folklorda və romantizmdə olan bədii düşüncənin müştərək qatları kimi baxmaq lazımdır.

***H.Cavid:***

Kimsədən gözləmə yardım əsla;
Yalnız kəndinə kəndin ağla!

***Qaynaq:***

Hər adam özü üçün fikir eləməlidir.

***H.Cavid:***

Bir qızın ancaq bilgidir, təmizlikdir ziynəti.

***Qaynaq:***

Bilik insanın bəzəyidir.

Atalar sözləri və məsəllərin yaranması və inkişafı bu gün də davam etməkdədir.

### *Ədəbiyyat*

1.Gəncə folkloru antologiyası. III kitab. Gəncə 2016.
2.Gəncə folkloru antologiyası. I kitab. Gəncə 2003.
3.Romantiklərin yaradıcılığında atalar sözü və məsəllərdən istifadə H.Cavid və Ə.Hamidın yaradıcılığı əsasında.
4. Atalar sözü.Bakı: Öndər nəşriyyatı, 2004, 264 səh.
5. Azərbaycan qəzeti. www.azerbaijan-news.az. 23 sentyabr 2011-ci il.

## ПОСЛОВИЦЫ И СЛУЧАИ ИХ ИСПОЛЬЗОВАНИЯ

***Алиева Айнура Камран***

***Резюме***

Пословицы являются одним из основных видов устной литературы. Они отображают в себе основные периоды жизни и деятельности человеческой цивилизации.

Давольно часто встречаются пословицы в эпосе азербайджанской литературы «Китаби-Деде Коркут». Здесь встречаются более семидесяти пословиц. Более двух тысяч пословиц и поговорок встречаются в «Огузнаме»; больше тысячи примеров в «Амсале-Туркане» XVIII века. Однако системное исследование азербайджанских пословиц можно отследить с XIX века. Пословицы так же встречаются. Во многих фольклерных жанрах.

DOI:10.30546/gdu.2023.273-277

**PROVERBS AND THEIR POINTS OF DEVELOPMENT**

***Alieva Aynura Kamran***

***Summary***

Provebs are the one of popular kind of literature based on oral activities. They rould deseribo the basic periods, also charcıctcristics of human life.

So fast we rould find varions Samples of provebs in Azerbaijani literature as “Kitabi-Dada Gorgud”. Here there are more than seven hundreds proveb samples. Also in such literature monuments as “Oguzname” there are more than two thousands these samples too. Best in “Amsale-turkane” of the XVIII century we could find for thousand provebs. And at the end, the scientific researclı of Azerbaijani literature Startcrl from the XIX century.

***Rəyçi: f.ü.f.d. Quliyeva Ruziyə Zaman qızı***

***AMEA Gəncə Bölməsi Ədəbiyyat şöbəsinin 05.04.2023-cü il tarixli iclasının 02 saylı protokolu.***

***Daxil olma tarixi 10 iyul 2023-cü il***